https://doi.org/10.59849/3006-1342.2026.1.37
UOT 930.22

*Yaqub Abbasqulu oğlu Səmədov*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı*
*T.ü.f.d., dosent*
*E-mail: yaqub.semedov.93@gmail.com*
*Orcid ID: 0009 – 0002- 1584- 9317*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN - ÖZBƏKİSTAN ƏMƏKDAŞLIĞI: REALLIQLAR, PERSPEKTİVLƏR

*Açar sözlər:* Azərbaycan, Özbəkistan, əməkdaşlıq, iqtisadi, hərbi, mədəni

## *Giriş*

Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, bu təbii-coğrafi mövqey tarixən ölkəmizin türk dünyasında körpü rolu oynamasını təmin edib. Bununla belə, elə məqamlar olub ki, türk dünyası ilə əlaqələrin qurulmasında ölkəmiz obyektiv səbəblərdən böyük çətinliklərlə də üzləşib. Xüsusilə də, Sovet dönəmində, bu imperiyanın mövcud olduğu zaman kəsiyində onun əsarəti altında olan Azərbaycan, o cümlədən digər qardaş türk respublikaları yalnız bu rejimin icazə verdiyi çərçivədə, bir-biri ilə müəyyən münasibətlər qura bilmişdir. Hal - hazırkı dövrdə Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra artıq, tam fərqli bir tarixi dönəmə qədəm qoyuldu və ölkəmizin türk respublikaları ilə əlaqələrinin qurulmasında yeni bir mərhələnin başlanğıcı qoyuldu. Azərbaycan Respublikası ilə yanaşı Özbəkistanın da müstəqil dövlət kimi yeni inkişaf yoluna qədəm qoyması bu iki qardaş ölkənin qarşılıqlı əməkdaşlığında olduqca yüksək keyfiyyət dəyişikliyi yaratdı. Qarşılıqlı, faydalı əməkdaşlığın hər iki qardaş xalqın həyatındakı rolunun mövzunun xarakterinə uyğun olaraq dövriyyəyə daxil edilmiş mənbələr əsasında ilk dəfə olaraq yeni elmi yanaşma əsasında araşdırılmasına təşəbbüsün göstərilməsi bu baxımdan mühüm aktuallıq kəsb edir. Digər tərəfdən, qeyd olunan istiqamətdə aparılan elmi araşdırmalar həm də, hər iki qardaş ölkənin qarşılıqlı münasibətlərinin gələcəyi haqqında da fikir yürütməyə imkan verir.

Bir mühüm cəhəti də qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikası ilə Özbəkistan dövləti arasında əməkdaşlığın sahələri miqyasına görə geniş, çoxcəhətli olduğundan məqalənin məhdud elmi imkanları daxilində tədqiqat işində başlıca diqqət bu əlaqələrin yalnız iqtisadi, hərbi və mədəni tərəflərinə toxunulmuş, həmçinin bu istiqamətdə ortaya çıxan çətinliklərin əsl mahiyyətinin obyektiv işıqlandırılmasına cəhd göstərilmişdir.

Bundan əlavə, məqalədə qarşıya qoyulan problem tədqiq edilərkən mövzunun xarakterinə uyğun olaraq əsas mənbə kimi dövri mətbuat materiallarına istinad edilmişdir.

## *Əsas hissə*

Müasir dövrdə Azərbaycanın Mərkəzi Asiya respublikaları ilə, ilk növbədə də Özbəkistanla münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Azərbaycanın Özbəkistanla ilk diplomatik əlaqələri 1995-ci il oktyabrın 2- də rəsmən baş tutsa da, lakin bu münasibətlərin kökü daha qədimlərə gedib çıxır. Belə ki, dil yaxınlığı, oxşar mədəniyyət və adət-ənənələr bu xalqlar arasında dostluğa və qardaşlığa söykənən qarşılıqlı münasibətlərin qurulmasına zaman-zaman mühüm töhfələr vermişdir. SSRİ-nin süqutu və Azərbaycanın yenidən müstəqilliyinə qovuşmasından bir qədər sonra yəni, 1996- cı ilin ortalarında Azərbaycanın Özbəkistan Respublikasında, 1998-ci ilin may ayında isə qarşı tərəfin Bakıda səfirliyinin fəaliyyətə başlaması bu baxımdan diqqəti cəlb edir [13].

Arxiv materiallarına müraciət etdikdə məlum olur ki, hələ 1930-cu illərin dəhşətli repressiyalarının tüğyan etdiyi bir zaman kəsiyində on minlərlə soydaşımız nicat yolunu Özbəkistanda görərək bu ölkəyə sığınmışdır. Kütləvi qətliamın həyata keçirildiyi belə bir ağrılı dövrdə qarşı tərəfin humanist addımları hər iki xalqı bir-birinə daha da yaxınlaşdırmış və döğmalaşdırmışdır. Təsadüfi deyil ki, Azərbaycan xalqı da öz növbəsində 1996-cı ilin aprelində Daşkənd baş verən zəlzələ zamanı dostluğa və qardaşlığa sadiq qalaraq özbək xalqına təmənnasız yardımını əsirgəməmişdir [9].

Lakin bununla belə, müasir dövrdə baş verən mürəkkəb siyasi hadisələr və mövcud beynəlxalq şərait buna müvafiq kəskin mövqey sərgiləməyi və sıx əməkdaşlığa əsaslanan münasibətlər qurmağı hər bir dövlətin qarşısına mühüm vəzifə kimi qoyur. Bu baxımdan, müstəqilliyimizin ilk çağlarında Azərbaycanla Özbəkistan arasında qarşılıqlı münasibətlərin inkişafında Prezident Heydər Əliyevin və Özbəkistan Prezidenti İslam Kərimovun rolunu xüsusi qeyd etmək lazımdır. 1996-cı il 26-27 may günlərində dövlət başçısı İslam Kərimovun Özbəkistanın müstəqilliyinin ilk illərində Azərbaycana ilk rəsmi səfəri zamanı hər iki dövlət arasında münasibətləri inkişaf etdirmək və gələcəkdə yüksək səviyyəyə çatdırmaq üçün 19 müqavilələni əhatə edən sənədlər toplusundan ibarət əməkdaşlıq “haqqında müqavilə” imzalandı. 1996-cı ilin oktyabr ayında Prezident Heydər Əliyevin də qardaş ölkəyə səfəri zamanı yenidən hər iki dövlət arasındakı münasibətlərə toxunuldu və bir qədər əvvəl Bakıda bağlanmış müqavilə yenidən 1997-ci ilin iyun ayında Daşkənddə gündəmə gətirilərək təsdiq olundu [12, s. 191]. Müstəqillik dönəmində bağlanmış bu müqavilələr gələcəkdə hər iki ölkə arasında yüksək səviyyəli münasibətlərin qurulmasına, iqtisadi, hərbi və mədəni sahələrdə daha sıx əməkdaşlığın yaranmasına gətirib çıxardı.

**Azərbaycan - Özbəkistan iqtisadi əməkdaşlığı.** Müstəqillik illərində Azərbaycanla Özbəkistan arasında dövlət səviyyəsində ilk iqtisadi əlaqələr İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində baş tutdu. 1985-ci ildə yaranan bu təşkilatın üzvülüyünə digər ölkələrlə yanaşı, 1992-ci ildə Azərbaycan və Özbəkistan da daxil oldu. Lakin zaman keçdikcə hər iki ölkənin iqtisadi əlaqələri regional təşkilati çərçivədə deyil, onların mənafeyinə uyğun şəklidə xüsusi formada öz əksini tapdı. Azərbaycanla Özbəkistan Respublikası arasında iqtisadi əlaqələrin genişləndirilməsində ilk növbədə, 1997-ci il iyunun 18-də Daşkənd şəhərində yaradılmış yeni Birgə Hökümətlərarası Komissiyanın mühüm rolu oldu. Bu komissiyanın işçi qrupunun səmərəli fəaliyyəti nəticəsində qısa müddət ərzində hər iki ölkə arasında iqtisadi sahəni də əhatə edən demək olar ki, çoxsaylı müqavilələr imzalandı.

2003-cü ildə İlham Əliyev Respublika Prezidenti seçildikdən sonra Azərbaycan - Özbəkistan iqtisadi əməkdaşlığna daha böyük önəm verildi. 2008-ci il sentyabr ayının 11-də məhz, onun təşəbbüsü ilə Bakıda Prezidentlər səviyyəsində görüşlər keçirildi və müxtəlif sahələr üzrə hər iki ölkənin iqtisadi maraqlarına cavab verən 7 müqavilə imzalandı.

2022-ci ildə bağlanmış “Strateji tərəfdaşlığın dərinləşməsi” [8] müqaviləsi, 29 avqust 2022-ci ildə isə hər iki respublikanın iştirakı ilə iqtisadi əməkdaşlığı özündə ehtiva edən “Yol Xəritəsi”nin qəbulu və bu sazişdən irəli gələn 30 müxtəlif sahənin əhatə edən müddəalar Azərbaycan Özbəkistan əməkdaşlığına yeni töhfələr verdi. Həmin sənəddə qeyd olunur ki, Özbəkistanla Azərbaycan xalqları arasındakı “ənənəvi dostluq münasibətləri və birgə səylər hər iki ölkədə energetika sektorunun, ümumilikdə iqtisadiyyatın inkişafına xidmət edəcəkdir” [1].

2023-cü ilin avqustunda yenidən Bakıda Azərbaycanla Özbəkistan arasında tükənməyən, yəni bərpa olunan enerji sahəsində birgə əməkdaşlığın yaradılması istiqamətində mühüm danışıqların aparılmasını da bu istiqamətdə həyata keçirilən ən mühüm təşəbbüslərdən biri hesab etmək olar. 2023-cü il avqustun 22-də Bakıda hər iki ölkənin nümayəndələrinin iştirakı ilə bağlanan müqavilədə də Azərbaycan Özbəkistan iqtisadi əməkdaşlığı ilə bağlı problemlərə bir daha təkrarən toxunuldu. Son illərdə həyata keçirilməsi

nəzərdə tutulan "Xəzər dənizi Yaşıl Enerji Dəhlizi" layihəsi də hər iki ölkənin enerji sahəsi üzrə birgə regional (5 aprel 2025-ci il) əməkdaşlığına müsbət təsir göstərdi. Qısa müddət ərzində ümumi kapitalı 500 milyon dollar olan Azərbaycan - Özbəkistan birgə İnvestisiya Fondu (2023-cü ilin fevral ayında) yaradıldı ki, bu fondun da büdcəsinə daxil olan bütün vəsait hər iki ölkənin innovativ, eləcə də, emal sənayesi sahələrinin inkişafına yönəldilməsi nəzərdə tutuldu [15].

2025-ci il avqust ayının 22-də Aşqabad şəhərində Türkmənistan, Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə keçirilən üçtərəfli görüşdə nəqliyyat - logistika və özəl bölmə üzrə müştərək müəssisələrin təşkilinə dair mühüm müqavilələr imzalanmasını da Azərbaycan Özbəkistan iqtisadi əməkdaşlığında mühüm tarixi hadisə hesab etmək olar [2].

Həyata keçirilən uğurlu iqtisadi siyasət qısa müddət ərzində öz bəhrəsini verdi. Məsələn, 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları olduğu halda, 2025-ci ilin təkcə yanvar- sentyabr ayları ərzində bu göstərici 87.5 faiz artaraq 319 milyon ABŞ dolları təşkil etdi.

Ümumiyyətlə, müasir dövrdə Azərbaycanla Özbəkistan respublikaları arasındakı iqtisadi əlaqələr (ümumilikdə təxminən 200 saziş çərçivəsində) hər iki qardaş xalqın maddi rifahının yüksəldilməsinə xidmət etməklə yanaşı, çoxşaxəli olub ticarət, investisiya, nəqliyyat, enerji, gömrük, kənd təsərrüfatı, sənaye və s. bu kimi mühüm sahələri əhatə edir.

**Azərbaycan - Özbəkistan hərbi əməkdaşlığı.** 1991-ci il oktyabr ayının 18-də Azərbaycan yenidən öz müstəqilliyinə qovuşsa da, lakin ölkəmizin Özbəkistanla sıx hərbi əməkdaşlığı son dövrlərə gedib çıxır. Danılmaz həqiqətdir ki, 1990-cı illərin axırı- 2000-ci illərin başlanğıcnda Azərbaycanla Özbəkistan respublikaları arasında müəyyən məhdud çərçivədə hərbi əlaqələr mövcud olmuşdur, lakin bu əməkdaşlıq müvəqqəti xarakter daşımış, hərbi və antirerror təlimləri ilə yekunlaşmışdır.

Lakin İlham Əliyev Respublika Prezidenti seçildikdən sonra bu istiqamətdə mühüm addımlar atıldı. Belə ki, 2004-cü il martın 23-24-də Özbəkistanda [10, s. 451] dövlət başçıları səviyyəsində strateji tərəfdaşlıq "Bəyannamə"sinin təsdiqi, qısa müddət ərzində Prezident İlham Əliyev tərəfindən 2009-cu il 20 fevral tarixli hökümətlərarası "Saziş"i imzalanması hər iki ölkə arasında qarşılıqlı hərbi və texniki əməkdaşlığın qurulmasında mühüm rol oynadı. Həmin saziş 9 noyabr 2009-cu ildə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov tərəfindən də təsdiqlənərək dövlətlərarası mühüm sənədə çevrildi [16]. Buna uyğun olaraq, 29 noyabr 2019-cu ildə Bakıda müdafiə nazirləri səviyyəsində hər iki ölkənin təhlükəsizliyi ilə bağlı görüş keçirildi və 2020-ci il üçün birgə hərbi Əməkdaşlıq Planı qəbul olundu. 21 iyun 2022-ci il tarixdə isə Daşkənd şəhərində müdafiə nazirləri də daxil hər iki ölkənin prezidentinin iştirakı ilə yüksək səviyyəli görüş keçirildi və yekunda hərbi əməkdaşlıq sazişi imzalandı [3]. Özbəkistan parlamenti 6 aprel 2023-cü ildə dövlətlərarası hərbi əməkdaşlıq üzrə imzalanmış müqavilələri təsdiq etdi və indiyədək hər iki ölkə arasında bağlanmış bütün müqavilələr hüquqi təsdiqini tapdı. Bu hərbi əməkdaşlığa ilk növbədə hərbi təhlükəsizlik, xüsusi əməliyyatlar, kiber, informasiya, təhsil və hava məkanının təhlükəsizliyi və s. fəaliyyət sahələri daxildir.

21 sentyabr 2022-ci ildə Bakı şəhərində Müdafiə Nazirləri səviyyəsində keçirilən növbəti görüşdə də hər iki ölkə arasında hərbi əməkdaşlıq çərçivəsində maddi-texniki təchizat sahəsində əlaqələrin daha da genişləndirilməsinin vacibliyi xüsusi olaraq vurğulandı. Hərbi ekspert Tərlan Eyvazov iki qardaş ölkənin hərbi əməkdaşlığının gələcək perspektivlərinə müsbət yanaşaraq qeyd edir ki, kadr hazırlığı məsələsində Azərbaycan, təyyarələrin, helikopterlərin, tankların və digər hərbi maşınların modernləşdirilməsində isə Özbəkistanın təcrübəsi hər iki ölkəyə böyük fayda verə bilər [14]. Digər tərəfdən vurğulamaq yerinə düşər ki, bu hərbi əməkdaşlıq həm də Cənubi Qafqaz və Mərkəzi Asiyada sülh və sabitlik üçün də xüsusi əhəmiyyətə malikdir [4].

Müdafiə nazirliyi səviyyəsində 6 iyun 2024-cü il tarixdə Bakı şəhərində və 07 iyunda (2024-cü il) isə Daşkənd şəhərində hərbi əməkdaşlıq çərçivəsində hər iki ölkənin hərbi texniki, təhsillə bağlı inkişaf imkanlarının yenidən müzakirəyə çıxarılması da hərbi əməkdaşlığın əsas prioritetlərindəndir [5].

Həhayət, 2025-ci il dekabr ayının 10-da hər iki respublikanın Təhlükəsizlik Şurasının katibliyi səviyyəsində keçirilən görüşdə birgə hərbi əməkdaşlığın yalnız Cənubi Qafqaz regionu üçüm deyil, həmçinin Mərkəzi Asiyada da sülhün və təhlükəsizliyin təminində əhəmiyyətli rol oynayacağına əminlik bir daha vurğulandı.

**Azərbaycan - Özbəkistan mədəni əməkdaşlığı.** Azərbaycanla Özbəkistan arasındakı mədəni əməkdaşlıq həm qədim tarixə malikdir, həm də ortaq etnik türk köklərinə, dostluq və qardaşlıq münasibətlərinə söykənir. Bu əməkdaşlıq digər tərəfdən də, çoxşaxəli olub ədəbiyyat, musiqi, kinematoqrafiya, təhsil və s. sahələri əhatə edir.

Müstəqillik illərində Azərbaycanla Özbəkistan arasında mədəni əməkdaşlığın ilk işartıları 1995-ci ildən sonrakı dövrə aiddir və Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, bu dahi şəxsiyyətin bu sahədəki xidmətləri özbək xalqı tərəfindən də yüksək səviyyədə dəyərləndirilmiş və 2010-cu ildə onun şərəfinə Daşkənd şəhərində Heydər Əliyev muzeyi təsis edilmişdi [17].

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dövlət səviyyəsində mədəni əməkdaşlıq sahəsində ilk yüksək səviyyəli rəsmi görüş isə 2021-ci il oktyabr ayının 23-də Daşkənd şəhərində baş tutdu. Bu görüşdə qardaş ölkədən Mədəniyyət Naziri Azadbek Nazarbekov və Azərbaycan Respublikasından isə Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva iştirak etdi. Görüşün yekununda hər iki ölkə arasında daha sıx qarşılıqlı mədəni əlaqələrin qurulması və onun gələcək inkişafı, muğam və makom sənətinin birgə öyrənilməsi, elmi baxımdan araşdırılması, həmçinin bu istiqamətdə müntəzəm təcrübə mübadiləsinin həyata keçirilməsi və s. məsələlərlə bağlı razılaşma əldə edildi [11].

Qoşulmama Hərəkatının 60 illik yubleyi 2021-ci il oktyabr ayının 12 -də Belqrad şəhərində keçirilərkən burada hər iki qardaş ölkənin xarici işlər nazirliyi səviyyəsində baş tutan görüşdə də digər məsələlərlə yanaşı mədəni sahədə xüsusilə, işğaldan azad edilmiş ərazilərdə mədəni irsin bərpası istiqamətində qarşılıqlı əməkdaşlığın mühüm məsələləri müzakirə edildi [6].

Mədəni əməkdaşlıq çərçivəsində qardaş ölkədə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə ali məktəblər arasında müxtəlif xarakterli qarşılıqlı təcrübə mübadiləsi "Memorandumu"nun da imzalanmasını bu istiqamətdə atılan mühüm addımlardan biri hesab etmək olar [7].

Yuxarıda deyilənlərə bir mühüm cəhəti də əlavə etmək yerinə düşər ki, 2025-ci il dekabr ayının 15-də Bakı şəhərində Özbəkistan mədəniyyətinə həsr olunmuş Günlər çərçivəsində hər iki ölkənin müvafiq nazirliyinin yüksək çinli nümayəndələrinin iştirakı ilə birgə işçi Komissiyanın ilk iclası keçirildi, yeni bir əməkdaşlıq Memorandumu imzalandı və bu müqavilədə də bir daha tərəfdaşlar mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsinə sadiqliyi nümayiş etdirdi.

## *Nəticə*

Etnik-dini və mədəni baxımdan Azərbaycanla Özbəkistan qardaş ölkələrdir. SSRİ -nin süqutundan sonra müstəqilliyinə qovuşan hər iki ölkənin qarşılıqlı əməkdaşlığında (iqtisadi, hərbi mədəni və s. sahələrdə) yeni mərhələnin bünövrəsi qoyuldu. Çox keçmədən bu qarşılıqlı əlaqələr yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdı. Ümumilikdə, bu əməkdaşlığın əhəmiyyətini aşağıda qeyd olunan mülahizələrlə yekunlaşdırmaq olar:

-Azərbaycan Özbəkistan əməkdaşlığı mahiyyətcə çoxşaxəli olub, hər iki qardaş ölkənin müxtəlif sahələrdə birgə fəaliyyətini stimullaşdırır və onu yeni dəyərlərlə zənginləşdirir;

-Qarşılıqlı əməkdaşlıqda əsas yer tutan, iqtisadi əlaqələr və bu əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi, həmçinin göstərilən istiqamətdə gələcəkdə əldə ediləcək daha yüksək uğurlu nəticələr, perspektivdə hər iki ölkəni sabit və uzunmüddətli inkişafın etibarlı təminatçısına çevirir;

- Unutmaq olmaz ki, Azərbaycan Özbəkistan əməkdaşlığında strateji əhəmiyyətli sahə kimi hərbi sahənin də özünəməxsus yeri vardır. Bu hərbi əməkdaşlıq işğalçılıq niyyəti ilə deyil, hər iki qardaş ölkəni gözləyən təhdidlərə cavab vermək üçün yaradılmış və yarandığı gündən də etibarən yalnız sülhə, təhlükəsizliyə xidmət edir. Regional səviyyədə də bu əməkdaşlıq Cənubi Qafqazın və Mərkəzi Asiyanın firavan və təhlükəsiz zonaya çevrilməsi istiqamətində humanist təşəbbüslərə ciddi dəstəyi ilə də seçilir;

- İki qardaş ölkənin əməkdaşlığının mühüm sahələrindən biri olan mədəni əlaqələr Azərbaycan və özbək xalqlarının tarixi irsini, mənəvi dəyərlərini özündə ehtiva edərək ortaq türk tarixinə, mədəniyyətinə söykənir. Bununla yanaşı, hər iki ölkə türk dövlətlərinin təmsil olunduğu Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının **(**TÜRKSOY-ya) əsas üzvlərindən olduğundan öz fəaliyyətlərini həm də bu təşkilatın “Ümumtürk Evi”nin qurulması prinsipi üzərində kökləyir və onun realaşdırılması istiqamətindəki fəaliyyətlərini türk xalqların birliyi naminə müqəddəs borc hesab edir;

Yekunda bir cəhəti də qeyd etmək yerinə düşər ki, bütövlükdə hər iki qardaş ölkənin müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı həm məhəlli, həm də qlobal xarakter daşıyır. Əgər məhəlli çərçivədə bu əməkdaşlıq qardaş xalqların maddi rifahının yüksəldilməsinə hədəflənirsə, qlobal səviyyədə isə bu əməkdaşlıq öz çərçivəsini aşaraq, sərhədlərini keçərək perspektivdə bütün region ölkələri ilə sabit, davamlı əlaqələrin qurulmasını başlıca məqsəd kimi qarşıya qoyur. Beləliklə, humanist dəyərlər üzərində qurulan, hüququn aliliyini özündə təcəssüm etdirən Azərbaycan Özbəkistan əməkdaşlığı hər iki ölkənin uğurlarında böyük paya sahibdir və onun xoş gələcəyindən xəbər verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan və Özbəkistan arasında enerji əməkdaşlığının Yol Xəritəsi imzalanıb. https://minenergy.gov.az/az/xeberler-arxivi/azerbaycan-ve-ozbekistan-arasinda-enerji-emekdasliginin- yol-xeritesi-imzalanib. 29.08.2022.
2. Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin iştirakı ilə Türkmənbaşı şəhərində sənədlərin imzalanması mərasimi olub. zertag.az/xeber/ azerbaycan_ turkmenistan_ ve_ ozbekistan_liderlerinin_istiraki_ile_turkmenbasi_seherinde_senedlerin_imzalanmasi_merasimi_ olub _yenilenib_video-3711063. 22.08.225.
3. Azərbaycanla Özbəkistan arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalanıb. https://www.e-huquq.az/az/news/siyaset/50705.html. 21 İyun 2022.
4. Azərbaycan-Özbəkistan hərbi əməkdaşlıq planı. chttps://azvision.az/news/193409/news.html. 29 oktyabr 2019.
5. Azərbaycan ilə Özbəkistan arasında hərbi texniki sahədə əməkdaşlıq müzakirə edilib. https://asela.az/cemiyyet/3785-azrbaycan-il-ozbkistan-arasnda-hrbi-texniki-sahd-mkdalq-muzakir-edilib**.** html. 06.06.2024.
6. Azərbaycan ilə Özbəkistan arasında mədəni irsin bərpası sahəsində birgə əməkdaşlıq məsələləri müzakirə edilib. https://azertag.az/ xeber/azerbaycan_ile_ ozbekistan_ arasinda_ medeni_berpasi_sahesinde_birge_emekdasliq_meseleleri_muzakire_edilib-1898620. 12.10.2021.
7. Azərbaycan və Özbəkistanın ali məktəbləri arasında əməkdaşlıq memorandumu imzalanıb. https://azertag.az/xeber/azerbaycan_ve_ozbekistanin_ali_mektebleri_arasinda_emekdasliq_memorandumu_imzalanib-321200603. 10.2024.

8. Həsənov Ş. Bu gün Azərbaycan-Özbəkistan əlaqələri yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. https://sesqazeti.az/ news/politics/1267556.html. 07 iyul 2025.
9. Hüseynov A. Azərbaycan-Özbəkistan münasibətləri bütün sahələrdə inkişafdadır. https://veteninfo.az/azerbaycan-ozbekistan-munasibetleri-butun-sahelerde-inkisafdadir 03. 07.2025.
10. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. - Bakı, “Zərdabi LTD” MMC, 2015. 1056 s.
11. Kəngərli Q. Azərbaycanla Özbəkistan arasında mədəni sahədə əməkdaşlıq məsələləri müzakirə olunub. https://azertag.az/xeber/azerbaycanla_ozbekistan_arasinda_medeni_ sahede_emekdasliq_meseleleri_muzakire_olunub-190715623.10. 2021.
12. Qurbanov R. Türk xalqlarının tarixi. Ali məktəblərin Azərbaycan bölmələri üçün dərs vəsaiti. Bakı, “İqtisad Universiteti” Nəşriyyatı, 2011. 216 s.
13. Mehman A. Azərbaycan-Özbəkistan münasibətləri yeni inkişaf mərhələsində. https://az. trend. az/azerbaijan/politics/3787304.html. 22avqust 2023-cü il.
14. Məmməd S. Azərbaycan-Özbəkistan hərbi əməkdaşlığı: “Ölkəmiz rəsmi Daşkəndin təcrübələrindən yararlana bilər”. https://yenicag.az/azerbaycan-ozbekistan-herbi-emekdasligi-olkemiz-resmi-daskendin-tecrubelerinden-yararlana-biler-ekspert. 24 iyun 2022-ci il.
15. Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq bütün region üçün uzunmüddətli iqtisadi bağın formalaşmasına xidmət edəcək. https://azertag.az/xeber/ ozbekistan_ve_ azerbaycan_ arasinda_ emekdasliq_butun_region_uchun_uzunmuddetli_ iqtisadi_ bagin_ formalasmasina_ xidmet_edecek-3891451. 01.12.2025.
16. Özbəkistan Prezidenti Özbəkistan və Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq haqqında müqaviləni təsdiqləyib. https://az.trend.az/azerbaijan/politics/1576105.html09 noyabr 2009-cu il.
17. Rəhimova G. Azərbaycan və Özbəkistan arasında strateji əməkdaşlıqdan əlavə güclü mədəni əməkdaşlıq var. https://ikisahil.az/post/azerbaycan-ve-ozbekistan-arasinda-strateji-emekdashliqdan-elave- guclu-medeni-emekdashliq-var. 23 iyun 2022.


УДК 930.22

*Якуб Аббасгулу оглы Самадов*
*Агджабадский Филиал Азербайджанского*
*Государственного Педагогического Университета*

## СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНА И УЗБЕКИСТАНА В СОВРЕМЕННУЮ ЭПОХУ: РЕАЛИИ, ПЕРСПЕКТИВЫ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Узбекистан, сотрудничество, экономическое, военное, культурное

Азербайджан расположен в таком географическом пространстве, что это природное и географическое положение исторически обеспечивало нашей стране роль связующего звена в тюркском мире. Однако были времена, когда наша страна сталкивалась с большими трудностями в установлении отношений с тюркским миром по объективным причинам. В частности, В период существования Советского Союза Азербайджан, находившийся в составе СССР, а также другие тюркские республики,

Азербайджан, находившийся в составе СССР, а также другие братские тюркские республики, могли устанавливать определенные отношения друг с другом только в рамках, разрешенных этим режимом. В настоящее время, после обретения независимости, Азербайджан вступил в новый исторический этап развития отношений с тюркскими республиками. Тот факт, что Узбекистан, наряду с Азербайджанской Республикой, встал на новый путь развития как независимое государство, способствовал существенным изменениям во взаимном сотрудничестве этих двух братских стран. В этом контексте особое значение приобретает исследование роли взаимовыгодного сотрудничества исследование роли взаимовыгодного сотрудничества в жизни двух народов на основе нового научного подхода опирающегося на периодические источники, в соответствии с характером темы. С другой стороны, научные исследования, проводимые в указанном направлении, также позволяют прогнозировать будущее развитие взаимоотношений взаимоотношений между двумя братскими странами.

Следует также отметить один важный аспект: поскольку области сотрудничества между Азербайджанской Республикой и Узбекистаном широки и многогранны по масштабу, в рамках ограниченного объема статьи основное внимание в исследовательской работе было уделено только экономическим, экономическим, военным и культурным аспектам этих отношений, а также была предпринята попытка объективно проанализировать характер возникших трудностей.

UDC 930.22

*Yaqub Abbasgulu Samadov*
*Aghjabadi Branch of Azerbaijan*
*State Pedagogical University*

AZERBAIJAN - UZBEKISTAN COOPERATION IN THE MODERN PERIOD: REALITIES AND PERSPECTIVES

*SUMMARY*

*Keywords:* Azerbaijan, Uzbekistan, cooperation, economic, military, cultural

Azerbaijan is located in such a geographical space that this natural and geographical position has historically ensured that our country serves as a bridge in the Turkic world. However, there have been times when our country has faced great difficulties in establishing relations with the Turkic world for objective reasons. In particular, during the Soviet period, Azerbaijan, which was under Soviet rule, as well as other fraternal Turkic republics, were able to establish certain relations with each other only within the framework permitted by this regime. In the present period, following the restoration of independence, a new historical stage began in establishing relations between our country and the Turkic republics. The fact that Uzbekistan, along with the Republic of Azerbaijan, has embarked on a new path of development as an independent state has created a significant transformationin the mutual cooperation of these two brotherly countries. The initiative to investigate the role of mutually beneficial cooperation in the lives of both brotherly peoples in connection with a new scientific approach based on periodical sources in accordance with the nature of the topic is of considerable academic significance. On the other hand, scientific research conducted in the

mentioned direction also allows us to think about the future of mutual relations between the two brotherly countries.

It is also important to note that since the areas of cooperation between the Republic of Azerbaijan and Uzbekistan are wide and multifaceted in terms of scale, within the limited scope of this article, the main attention in the research work has been paid only to the economic, military and cultural aspects of these relations, and an attempt has also been made to objectively examine the nature of the difficulties that have arisen in this direction.

***Daxil oldu: 29.01.2026-cı il***